

# VƏTƏNƏ SEVGİ, DÖVLƏTÇİLİYƏ SƏDAQƏT

## İctimai xadim, nüfuzlu el ağsaqqalı Hidayət Bəşirovun ömür yolundan qırmızı xətlə keçir



**Onun həyatı maraqlı, oxunaqlı, orijinal bir kitaba bənzəyir. Hər səhifəsində unudulmaz, yaddaqalan hadisələr, xoş xatirələr boylanır. Ötən illərə nəzər saldıqda ömrünün xoş, şirin anları gözlərinin önündə canlanır. Elə bil hər şey dünən olub, nə tez gəldin, 90 yaş? - deyə köks ötürür.**

Hidayət müəllim dağlar diyarı Lerikin Zuvand mahalının Qışlaq kəndində dünyaya gəlib. Bu kənd Talış və Peştəsər silsilələri arasında Zuvand (Diabar) çökəkliyinin ən səfalı hissəsində yerləşir. Ərazisinin hər yerindən zirvələri daim qarla örtülü Savalan görünür. Savalanla baş-başa, Talış dağları ilə çiyin-çiyinə, dəniz səviyyəsindən hündürlüyü 2493 metr olan Kömürgöyün sinəsində qərar tutub. Keçən əsrin 50-ci illərinin əvvəllərində Biləsuvar rayonuna köçürülən Lerikin 26 kəndindən ən böyüyü Qışlaq olub.

Atası Yusifəli mahalın mərd, qoçaq, zəhmətkeş kişilərindən biri olub. El-obanın təəssübünü çəkib, inqilabdan əvvəl ərazini qaçaq-quldurların hücumlarından qoruyub. Sovet dönəmində dövlət sərhədinin mühafizəsində köməyini əsirgəməyib.

İri şəxsi təsərrüfat sahibi olub. Min başdan artıq qoyun-quzu, mal-qara saxlayıb. Mahalda səxavətli, xeyirxah insan kimi tanınıb, hörmət, nüfuz qazanıb. İkinci Dünya müharibəsində və ondan sonrakı ağır illərdə el-obanı aclıq çəkməyə qoymayıb, hamıya əl tutub. Həm də loğman kimi həmyerlilərinə yardım edib.

Hidayət müəllim uşaqlıqdan əməyə alışıb. Zəhmətkeş Yusifəli atanın və Xanı ananın tərbiyəsini alıb. Oxumağa böyük marağı olub. Dediyinə görə, bir əlində kitab, bir əlində zəhmətlə böyüyüb. Doğma kəndində yeddiillik məktəbi bitirib. Orta təhsilini Lerik qəsəbəsində başa vurub.

Böyük qardaşı Bəşir Bəşirov Azərbaycan Dövlət Pedaqoji İnstitutunun (indiki Azərbaycan Dövlət Pedaqoji Universiteti) coğrafiya fakültəsini bitirib. Universitetdə müəllim, dekan müavini, kafedra müdiri, təlim-tərbiyə işləri üzrə prorektor vəzifəsində işləyib. Tanınmış alim, nüfuzlu ziyalı, çox hörmətli ağsaqqal olub. Bəşir müəllim hələ tələbə olanda qardaşı Hidayət onun yolu ilə getməyi qərara alıb.

Bəlkə də doğma yurdun gözəlliyinə, zəngin, füsunkar təbiətinə sonsuz sevgisindəndir ki, Hidayət müəllim kimya-biologiya ixtisasını seçərək sənədlərini Azərbaycan Dövlət Pedaqoji İnstitutuna verib. Yüksək qiymətlərlə ali məktəbə daxil olub. Təhsil dövründə fəal və ictimaiyyətçi tələbə kimi tanınıb. Fakültə komsomol komitəsinin katibi, institut komsomol komitəsinin ikinci katibi seçilib.

O, 1961-ci ildə ali təhsilini başa vurub. Respublika Elmlər Akademiyasının Qeyri-Üzvi Kimya İnstitutuna təyinat alsa da, müəllim peşəsini daha üstün bilib. Lerik rayonunun ucqar Siyov kənd məktəbində ixtisası üzrə müəllim işləyib. Dərin biliyi, peşəsinə məhəbbəti, tələbkarlığı ilə seçilib. Hər il dərs dediyi şagirdlər yüksək qiymətlərlə respublikamızın ali məktəblərinə qəbul olunublar.

Yüksək təşkilatçılıq, idarəetmə qabiliyyəti, işgüzarlığı nəzərə alınaraq 3 ildən sonra məktəbin direktoru vəzifəsinə irəli çəkilib. Tədrisin səviyyəsinin yüksəldilməsi, şagirdlərin biliklərə dərindən yiyələnməsi, əsl vətəndaş kimi yetişməsi üçün bütün qüvvələri səfərbər edib. Məktəbin nailiyyətləri ildən-ilə artıb. Fəal, ictimaiyyətçi təhsil işçisi kimi rayon sovetinə deputat seçilib. Daxili imkanlar hesabına məktəb üçün əlavə 5 sinif otağı tikdirib. Ucqar kənddə təhsilin inkişafı üçün var qüvvə ilə çalışıb.

Hidayət müəllim həyatının 8 ilini Siyovda keçirib. Ailə xoşbəxtliyini də bu kənddə tapıb. 1966-cı ildə əsilli, nəcabətli bir ailəni qızı olan Şövkət xanımla ailə qurub. Şövkət xanımın atası Mirələm Bayramov Siyovda kolxoz sədri və digər məsul vəzifələrdə işləyib. Dövrünün təcrübəli təsərrüfat rəhbərlərindən, nüfuzlu ağsaqqallarından olub.

Hidayət müəllim nümunəvi, qabaqcıl direktor kimi rayon mərkəzində məktəb direktorunun müavini vəzifəsinə irəli çəkilib. On illik səmərəli pedaqoji fəaliyyəti, yüksək işgüzarlığı rayon rəhbərliyinin diqqətindən yayınmayıb. 1971-ci ildə Lerik rayon partiya komitəsinin təbliğat və təşviqat şöbəsinin müdiri təyin olunub. Cəmi 4 il sonra rayon xalq maarif şöbəsinə müdir göndərilib. Elə həmin il daha məsul vəzifəyə - Lerik rayon partiya komitəsinə ideologi sahə üzrə katib vəzifəsinə seçilib. Bu təyinatla bağlı Hidayət müəllim görkəmli dövlət xadimi, xalqımızın ümummilli lideri Heydər Əliyevlə unudulmaz görüşü belə xatırlayır:

- O illərdə Mərkəzi Komitənin birinci katibi Heydər Əliyev rayonların birinci katiblərini yeni təyinat zamanı şəxsən qəbul edirdi. İkinci katibləri, digər katibləri isə MK-nın ikinci katibi qəbul edirdi. İdeoloji katib vəzifəsinə təyin olunmaq üçün mənimlə bərabər daha dörd rayondan namizədlər Mərkəzi Komitəyə gəlmişdi. Bir neçə şöbədə sorğu-sualdan sonra təşkilat şöbəsinin müdirinin qəbuluna gəldik. Bizi Heydər Əliyevin şəxsən qəbul edəcəyini dedi. Çox həyəcanlı idim. Heydər Əliyev iş otağında bizi qəbul edərək hər birimizlə görüşdü, oturmağa yer göstərdi. İnsanlarla səmimi münasibət qurmağı, təmiz işləməyi, siyasi cəhətdən yetkin olmağı tapşırdı. Tövsiyə və tapşırıqlarını verəndən sonra hər birimizi təbrik edib uğurlar arzuladı. Dahi rəhbərlə bu unudulmaz görüş yaddaşıma əbədi həkk olunub.

O illər respublikamızın hər yerində olduğu kimi, ucqar dağ rayonu Lerikdə də sürətli inkişaf, tərəqqi və yüksəliş dövrü olub. Hidayət müəllim ideoloji sahəyə rəhbərlik etməklə yanaşı, təhsil, səhiyyə, mədəniyyət müəssisələrinin də fəaliyyətinə nəzarət edirdi. O illərdə Bakı Ali Partiya Məktəbini (indiki Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasını) da bitirib.

Sərhədçilərin ən yaxın dostu idi. Sərhədçi günü münasibətilə Kələxan kəndindəki hərbi hissəyə gedəndə evi üçün aldığı təzə televizoru sərhədçilərə bağışlayıb. O illərdə 1-ci və 2-ci dərəcəli "Sərhəd əlaçısı" döş nişanları ilə mükafatlandırılıb.

Kiyevdə Ali Hərbi Məktəbin nümunəvi müdavimlərindən olub. Kursu yüksək qiymətlərlə bitirdiyinə görə kapitan rütbəsi ilə Vətənə qayıdıb. Hidayət Bəşirov dövlət qulluğunda səmərəli fəaliyyətinə, Vətən qarşısında xidmətlərinə görə "Şərəf nişanı" ordeninə layiq görülüb.

Hidayət müəllim üçün müəllimlikdən müqəddəs peşə yoxdur. Dövlət qulluğunda müəyyən müddət işləyəndən sonra yenidən məktəbə qayıdıb. Lerik şəhərində məktəb direktoru, rayon təhsil şöbəsinin müdir müavini, Astara Pedaqoji Kollecinin Lerik filialının müdiri işləyib.

2006-cı ildə təqaüdə çıxandan sonra da rayonun ictimai-siyasi həyatında fəal iştirak edir. 2008-ci ildə Lerik rayon veteranlar təşkilatının sədri seçilib. Artıq 17 ildir ki, çiynini ağır yükün altına verib. Rayonda hər bir veteranla şəxsən görüşüb vəziyyəti, səhhəti ilə maraqlanır, qayğı və köməyini əsirgəmir. Lerik şəhər mədəniyyət mərkəzində İkinci Dünya müharibəsi veteranlarından Həmzə Şıxəliyev, Daşdəmir Paşayev, Əli Hüseynov, Atamalı Şıxəliyev, görkəmli alimlərdən Balağa Bağırov, Musa Bədəlov və başqalarının yubiley tədbirləri yüksək səviyyədə keçirilib.

Hidayət Bəşirovun əməyi dövlətimiz tərəfindən layiqincə qiymətləndirilib. Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə o, müstəqilliyimizin bərpasının 20 illiyi münasibətilə "Tərəqqi" medalı, 2023-cü ildə isə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev irsinin təbliğində xidmətlərinə görə "Heydər Əliyevin 100 illiyi (1923-2023)" yubiley medalı ilə təltif edilib. Hidayət müəllim bu iki medalı əməyinə verilən ən əziz, yüksək mükafat kimi dəyərləndirir.

Hidayət Bəşirov ömür-gün yoldaşı Şövkət xanımla 6 oğul və 3 qız böyüdərək Vətən üçün layiqli övladlar yetişdirib. Övladlarının hamısına ali təhsil verib. Oğlu Elxan Bəşirov texnika üzrə fəlsəfə doktoru və dünya üzrə patentləşdirilmiş bir neçə ixtiranın müəllifidir. Ölkəmizdə və regionda tanınmış "Mətanət A" şirkətinin qurucusu, Azərbaycan Tikinti Materialları İstehsalçıları Assosiasiyasının (ATMİA) sədridir. Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamları ilə Elxan Bəşirov "Tərəqqi" medalına və Əməkdar mühəndis fəxri adına layiq görülüb.

Fuad Bəşirov isə iqtisad üzrə fəlsəfə doktorudur, sahibkarlıq fəaliyyəti ilə məşğul olur. Hidayət müəllimin 24 nəvə və 2 nəticəsi var. Övladları və nəvələri ailə ənənələrini uğurla davam etdirirlər. Nəvələrindən Vilayət Londonda, Tural İstanbulda, Günel Macarıstanda mükəmməl ali təhsil alıb. Nəzrin ADA Universitetinin, Fidan Azərbaycan Dillər Universitetinin məzunudur. Nicat Ankarada, Nərmin Azərbaycan Texniki Universitetində, Murad isə Azərbaycan Dövlət İqtisad Universitetində təhsil alır.

Hidayət müəllim sözün əsl mənasında böyük ədəb, hörmət, ehtiram, səmimiyyət, nüfuz sahibidir. Keçdiyi ömür yolu bügünkü və gələcək nəsillərə ən gözəl örnəkdir.

**Əlisəfa HƏSƏNOV,**
**"Respublika".**